

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 156 (21.566)

*23 avqust 2016-cı il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvanda ali məktəblərə qəbul imtahanlarında yüksək bal toplamış tələbələrlə görüş keçirilmişdir





Avqustun 22-də Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəblərini bitirərək ali məktəblərə qəbul imtahanlarında yüksək bal toplamış tələbələrlə görüş keçirilmişdir.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının təhsil naziri Məmməd Qəribov demişdir ki, son illər muxtar respublikada 200-dən artıq təhsil müəssisəsi tikilmiş və ya əsaslı şəkildə yenidən qurulmuş, məktəblər ən müasir tədris avadanlıqları və informasiya-kommunikasiya texnologiyaları ilə təchiz olunmuşdur. Hazırda Naxçıvan Dövlət Texniki Kolleci üçün yeni binanın, eləcə də 12 məktəb binasının tikintisi və əsaslı şəkildə yenidən qurulması davam etdirilir. Həyata keçirilən tədbirlər məzunların buraxılış imtahanlarında yüksək nəticələr əldə etmələrinə şərait yaratmışdır. 2016-cı ildə ümumtəhsil məktəblərini 3138 məzun bitirmişdir. Məzunların 2469-u ali məktəblərə sənəd vermişdir ki, bu da məktəbi bitirənlərin 78,9 faizini təşkil edir. Sənəd verənlərin 1244-nü və ya 50,4 faizini qızlar, 1225-ni və ya 49,6 faizini isə oğlanlar təşkil edir. Heydər Əliyev adına Hərbi Liseyin məzunları ilə birgə bu il ali hərbi məktəblərə və digər ali təhsil müəssisələrinə sənəd verənlərin sayı 2674 nəfər olmuşdur. Bu isə, ümumilikdə, məktəbi bitirən məzunların 80 faizidir. Məzunlardan 191-i xüsusi təyinatlı ali məktəblərə qəbul üçün sənəd vermişdir.

Qeyd olunmuşdur ki, ali təhsil müəssisələrinə qəbul üçün keçirilən imtahanlarda iştirak edən 2016-cı ilin məzunlarından 1538-i ali təhsil müəssisələrinə qəbul olmuşdur ki, bu da sənəd verənlərin 62 faizini təşkil edir. Heydər Əliyev adına Hərbi Liseyin məzunlarından 199-u ölkənin müxtəlif ali hərbi məktəblərinə qəbul olmuşdur. Bütövlükdə ali hərbi məktəblərə və Azərbaycan Respublikasının digər ali məktəblərinə 1737 məzun qəbul olmuşdur ki, bu da həmin təhsil müəssisələrinə sənəd verənlərin 65 faizini təşkil edir. Naxçıvan şəhəri üzrə 508 nəfər sənəd vermiş, 380 nəfər qəbul olmuş, Şərur rayonu üzrə 512 nəfər sənəd vermiş, 288 nəfər qəbul olmuş, Babək rayonu üzrə 452 nəfər sənəd vermiş, 251 nəfər qəbul olmuş, Ordubad rayonu üzrə 251 nəfər sənəd vermiş, 167 nəfər qəbul olmuş, Culfa rayonu üzrə 302 nəfər sənəd vermiş, 156 nəfər qəbul olmuş, Şahbuz rayonu üzrə 136 nəfər sənəd vermiş, 83 nəfər qəbul olmuş, Kəngərli rayonu üzrə 146 nəfər sənəd vermiş, 87 nəfər qəbul olmuş, Sədərək rayonu üzrə 48 nəfər sənəd vermiş, 23 nəfər qəbul olmuş, Heydər Əliyev adına tam orta məktəb üzrə 58 nəfər sənəd vermiş, 49 nəfər qəbul olmuş, Naxçıvan Qızlar Liseyi üzrə 38 nəfər sənəd vermiş, 36 nəfər qəbul olmuş, Qarnizon tam orta məktəbi üzrə sənəd verən 18 nəfərin hamısı qəbul olmuşdur. Yüksək bal toplayanların sayı ötən ilə nisbətən 25 nəfər, 600-700 arası bal toplayanların sayı isə 8 nəfər artmışdır. 2016-cı il qəbul imtahanlarında 121 məktəbin məzunları yüksək nəticələr göstərmişdir.





Təhsil naziri demişdir ki, ali təhsil müəssisələrinə qəbulda qızların da sayı artmaqdadır. 2016-cı ildə 500-700 arası bal toplayanların içərisində qızların sayı 194 nəfər və ya 57,5 faiz olmuşdur. Ümumilikdə, tələbə adını qazanan məzunların isə 813 nəfəri və ya 53 faizi qızlardır. 2015-2016-cı tədris ilində tələbə adını qazanan məzunlardan 63-ü xüsusi təyinatlı ali məktəblərə qəbul olmuşdur. Təhsil şöbələri və təhsil müəssisələri üzrə yüksək bal toplayanların sayı aşağıdakı kimidir: Naxçıvan şəhəri üzrə 90, Şərur rayonu üzrə 56, Babək rayonu üzrə 46, Ordubad rayonu üzrə 45, Culfa rayonu üzrə 35, Şahbuz rayonu üzrə 21, Kəngərli rayonu üzrə 16, Sədərək rayonu üzrə 5, Heydər Əliyev adına tam orta məktəb üzrə 10, Naxçıvan Qızlar Liseyi üzrə 10 və Naxçıvan Qarnizonunun tam orta məktəbi üzrə 4 məzun 500-700 arası bal toplamışdır.

Qeyd olunmuşdur ki, abituriyentlər ixtisas seçimi zamanı muxtar respublikada fəaliyyət göstərən ali təhsil müəssisələrində təhsil almağa daha çox üstünlük verirlər. 2016-cı ildə 998 məzun ixtisas seçimi zamanı Naxçıvan Muxtar Respublikasında yerləşən ali təhsil müəssisələrini seçmişlər. Onlardan 655-i Naxçıvan Dövlət Universitetinə, 142-si "Naxçıvan" Universitetinə, 201-i isə Naxçıvan Müəllimlər İnstitutuna qəbul olmuşlar. 27 məzun "Qızıl" və "Gümüş" medallara layiq görülmüşdür. Qəbul imtahanlarında həmin məzunlardan 12-si 600-650, 15-i isə 650-700 arası bal toplamışlar.Yüksək bal toplayan abituriyentlərdən 178-i Naxçıvan Dövlət Universitetinə, 15-i Bakı Dövlət Universitetinə, 26-sı Azərbaycan Tibb Universitetinə, 23-ü Azərbaycan Dövlət İqtisad Universitetinə, 22-si Azərbaycan Dövlət Neft və Sənaye Universitetinə, 20-si Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasına, 5-i Azərbaycan Diplomatik Akademiyasına, 5-i Bakı Ali Neft Məktəbinə qəbul olmuşdur.

Valideyn Cəmilə Əliyeva çıxış edərək demişdir ki, muxtar respublikamızda Heydər Əliyev yolu davam və inkişaf etdirilir. Sosial-iqtisadi həyatda sürətli inkişafa nail olunur, şəhər və rayonlarımız günü-gündən abadlaşır, əhalinin yaşayış səviyyəsi yüksəlir. Övladlarımız yüksək qayğı ilə əhatə olunur və sağlam, milli ruhda böyüyürlər. Bu gün onların daha yaxşı təhsil almaları üçün hər cür şərait yaradılmışdır. Bu şəraitin nəticəsidir ki, ali məktəblərə qəbulda yüksək bal toplayanların sayı ilbəil artmaqdadır. Sonra valideyn Cəmilə Əliyeva qeyd etmişdir ki, muxtar respublikada təhsilə göstərilən diqqət və qayğı nəticəsində onun övladı da 695 bal toplayaraq tələbə adını qazanmışdır. Valideyn üçün övladını təhsilli və vətənpərvər görməkdən böyük xoşbəxtlik ola bilməz. Cəmilə Əliyeva bütün bunlara görə valideynlər adından minnətdarlıq etmişdir.

Qəbul imtahanlarında 696 bal toplayan Ramil Məmmədzadə çıxış edərək demişdir: Bu gün bizim hamımız hədsiz sevinc və fərəh içindəyik. Ona görə sevinirik ki, tələbə adını qazanmışıq. Muxtar respublikamızda təhsil sahəsində həyata keçirilən islahatlar, məktəblərimizin ən müasir kompüter və elektron lövhələrlə, dərslik və bədii ədəbiyyatlarla zənginləşdirilməsi bizi daha yaxşı oxumağa ruhlandırıb. Bu şəraitdən istifadə edərək zəruri elmi biliyə və dünyagörüşə yiyələnmişik. Yaradılan şəraitə və çəkilən zəhmətə cavab olaraq digər həmkarlarım kimi mən də öz məsuliyyətimi dərindən dərk edərək qəbul imtahanlarında 696 bal toplamış və Azərbaycan Respublikası Prezidenti Yanında Dövlət İdarəçilik Akademiyasının Hüquq ixtisasına qəbul olunmuşam. Ramil Məmmədzadə gəncliyin inkişafına göstərdiyi qayğıya görə ali məktəblərə qəbulda yüksək bal toplamış bütün tələbələr adından Ali Məclisin Sədrinə minnətdarlıq edərək söz vermişdir ki, milli dəyərlərimizə hörmətlə yanaşacaq, savadlı, vətənpərvər gənclər kimi yetişəcək və ölkəmizin daha da çiçəklənməsinə öz töhfələrini verəcəklər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov muxtar respublikanın ümumtəhsil məktəblərini bitirərək tələbə adını qazanmış bütün məzunları, onların müəllimlərini və valideynlərini təbrik edərək demişdir: Hər bir cəmiyyət inkişaf etmək, irəli getmək istəyirsə, ilk növbədə, təhsilə diqqət yetirməlidir. Təhsil olmadan gələcək haqqında düşünmək mümkün deyil. Təhsilin cəmiyyətdə rolunu yüksək qiymətləndirən Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev demişdir: ***"Azərbaycan dövlətinin əsas məqsədi gənclərimizi təhsilə, elmə cəlb etmək, təhsilin keyfiyyətini artırmaq və bu sahəni daha da inkişaf etdirməkdir".***

Ali Məclisin Sədri demişdir: Ötən əsrin 70-ci illərində ulu öndər tərəfindən əsası qoyulan yeni təhsil strategiyası bu gün də ölkəmizdə və onun Naxçıvan Muxtar Respublikasında inkişafın əsas hərəkətverici qüvvəsidir. Hər il Naxçıvanda təhsil infrastrukturu müasirləşdirilir, yeni məktəb binaları, tədris korpusları istifadəyə verilir. Ümumtəhsil məktəblərində ən müasir tədris şəraiti yaradılmış, 3725 kompüter və 600-dən çox elektron lövhə quraşdırılmış, distant təhsil tətbiq olunmuşdur. Həyata keçirilən tədbirlər öz bəhrəsini vermiş, təhsildə ciddi dönüş yaranmış, tədrisin keyfiyyəti yüksəlmişdir. Bu il muxtar respublikanın ümumtəhsil məktəbi məzunlarından 338-nin ali məktəblərə qəbulda 500-700 arasında bal toplaması da uğurlu təhsil strategiyasının nəticəsidir. Gənclərin təhsili ilə yanaşı, sosial müdafiəsi və

*Ardı 2-ci səhifədə*

məşğulluqlarının təmin olunması da diqqət mərkəzindədir. Gənclər təhsil aldıqları ixtisas üzrə işlə təmin olunur, dövlət idarəçiliyində irəli çəkilirlər. Bir sözlə, müasir gəncliyə hər yerdə etibar və inam vardır.

Ali Məclisin Sədri gənclərə müraciət edərək demişdir: Bu gün sizin həyatınızda mühüm mərhələ başlayır. Ölkəmizə və xalqımıza yararlı vətəndaş olmaq, əsl mütəxəssis kimi yetişmək üçün qarşınızda yeni imkanlar açılır. Bu imkanlardan yararlanmalı, daim öz üzərinizdə işləməli, mütaliə etməli, seçdiyiniz ixtisası dərindən mənimsəməlisiniz. Müasir dövrdə təhsil almaq gənclər üçün nə qədər vacibdirsə, peşə sahibi olmaq, əsl mütəxəssis kimi yetişmək də bir o qədər vacibdir. Bu gün sizə baxarkən gələcəyin həkimini, müəllimini, mühəndisini, hərbi qulluqçusunu və digər peşə sahiblərini görür və bununla qürur duyuruq. Gələcəkdə hansı sahədə çalışmağınızdan asılı olmayaraq müstəqil Azərbaycana ləyaqətlə xidmət etməlisiniz. Dünyagörüşünüzü inkişaf etdirməli, milli və ümumbəşəri dəyərləri, xalqımıza məxsus adət-ənənələri mənimsəməlisiniz. Bununla yanaşı həm də vətənpərvər olmalı, Vətən naminə çalışmalı, ümummilli liderimiz Heydər Əliyevin yoluna və ideyalarına sədaqət nümayiş etdirməlisiniz.

Ali Məclisin Sədri bu yolda gənclərə uğurlar arzulamışdır.

Sonra ali məktəblərə qəbul imtahanlarında 500-700 arası bal toplayaraq tələbə adını qazanmış məzunlara "Naxçıvan: Şərqin əfsanəsi" kitabı və pul mükafatı təqdim olunmuşdur.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## 2016-cı ilin yanvar-iyul ayları üzrə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı

Muxtar respublikada 2016-cı ilin yanvar-iyul aylarında 1 milyard 372 milyon 970 min manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur ki, bu da 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,9 faiz çoxdur.

Hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 4,9 faiz artaraq 3080,5 manata çatmışdır.

* * *

Muxtar respublikada yaradılan ümumi daxili məhsulun tərkibində ilk yeri sənaye sahəsi tutur. Sənaye üzrə 591 milyon 241 min 700 manat həcmində məhsul istehsal edilmişdir ki, bu da 2015-ci ilin müvafiq dövründəki göstəricini 3,3 faiz üstələmişdir.

* * *

İnfrastruktur quruculuğu çərçivəsində cari ilin yanvar-iyul ayları ərzində muxtar respublikada əsas kapitala 562 milyon 200 min 300 manat həcmində investisiya yönəldilmişdir ki, bu da bir il öncəki göstəricidən 0,6 faiz çoxdur. Əsas kapitala yönəldilmiş investisiyaların 527 milyon 722 min 200 manatı və ya 93,9 faizi tikinti-quraşdırma işlərinin payına düşmüşdür.

* * *

2016-cı ilin yanvar-iyul aylarında informasiya və rabitə xidmətlərinin həcmi 28 milyon 714 min manata yaxın olmuşdur ki, bu da 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 3,7 faiz çoxdur. Bu müddət ərzində mobil rabitə xidmətlərinin həcmi 23 milyon 691 min 600 manat olmaqla, bir il öncəki göstəricini 1,7 faiz üstələmişdir.

* * *

Cari ilin yanvar-iyul ayları ərzində 213 milyon 904 min manat həcmində kənd təsərrüfatı məhsulu istehsal olunmuşdur ki, bu da 2015-ci ilin müvafiq dövründəki göstəricini 5,1 faiz üstələmişdir. Bu dövr ərzində muxtar respublikada diri çəkidə 12,2 min ton ət, 57,8 min ton süd istehsal edilmiş, 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 2,3 faiz, süd istehsalı 1,4 faiz artmışdır.

* * *

Əhali gəlirlərinin artımı davam edir. 2016-cı ilin yanvar-iyul aylarında muxtar respublikada əhalinin gəlirləri 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,2 faiz artaraq 998 milyon 783 min 600 manat, onun hər bir nəfərə düşən həcmi isə 1,1 faiz yüksələrək 2240,9 manat təşkil etmişdir.

* * *

2016-cı ilin yanvar-iyun aylarında muxtar respublika iqtisadiyyatında bir işçiyə hesablanmış orta aylıq əməkhaqqının məbləği 406,8 manat təşkil etmiş və bu göstərici əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 3,6 faiz artmışdır.

* * *

Muxtar respublikada bank sektorunun normal fəaliyyəti təmin edilmişdir.

1 avqust 2016-cı il tarixə muxtar respublikanın banklarında açılmış bank hesablarının sayı 57423-ə çatmışdır ki, bunun da 51085-i və ya 89 faizi aktiv hesablardır. 2016-cı ilin yanvar-iyul aylarında açılmış 10478 bank hesabının hamısı aktiv hesablar olmuşdur.

Muxtar respublikada quraşdırılmış POS-terminalların sayı 1 avqust 2016-cı il tarixə 1160-a çatdırılmışdır.

* * *

Muxtar respublikada iqtisadiyyatın dinamik inkişafı xarici ticarət əlaqələrinin genişlənməsinə müsbət şərait yaratmış, cari ilin yanvar-iyul aylarında muxtar respublikada 240 milyon 931 min 800 Amerika Birləşmiş Ştatları dolları həcmində xarici ticarət dövriyyəsi qeydə alınmışdır. İxracın həcmi son bir il ərzində 2,2 faiz artaraq 217 milyon 654 min 500 Amerika Birləşmiş Ştatları dolları, idxalın həcmi 20,2 faiz azalaraq 23 milyon 277 min 300 Amerika Birləşmiş Ştatları dolları təşkil etmiş, 194 milyon Amerika Birləşmiş Ştatları dollarından artıq həcmdə müsbət saldo yaranmışdır.

* * *

Təsərrüfat subyektlərinin kredit resurslarına çıxış imkanları davamlı olaraq yaxşılaşdırılmaqdadır. 2016-cı ilin yanvar-iyul aylarında muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 21 milyon 937 min 200 manat məbləğində kreditlər verilmişdir.

* * *

2016-cı ilin yanvar-iyul aylarında muxtar respublikada bütün sığorta növləri üzrə daxilolmalar 3483,7 min manat olmuşdur.

* * *

2016-cı ilin yanvar-iyul aylarında muxtar respublikaya 216 min 284 nəfər turist gəlmişdir ki, bu da 2015-ci ilin müvafiq dövründəki göstəricidən 4,3 faiz və ya 8910 nəfər çoxdur.

* * *

1 iyul 2016-cı il tarixə muxtar respublikada əhalinin sayı bir il öncəyə nisbətdə 4902 nəfər və ya 1,1 faiz artaraq 446633 nəfər təşkil etmişdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

## Necə yaşayırsan, dağ kəndi?

### *Yurd sevgili yuxarı yaycılılar torpağı qoruduqları kimi, onu əkib-becərməyi də bacarırlar*

***Şərur rayonunda Arpaçay dəryaçasının yaxınlığında, Kölgəli, Xizəngi dağları və Cənnət qayasının ətəyində bir kənd var: Yuxarı Yaycı. Bu yaşayış məntəqəsinin 4 kilometrliyində isə Aşağı Yaycı kəndi yerləşir. Aparılmış arxeoloji qazıntılar bu kəndlərin nə qədər qədim olduğundan xəbər verir. Yuxarı Yaycı kəndi həm də Ağzirət piri, Cənnətqaya yaşayış məskəni ilə tanınır. Ağzirət piri kənd əhalisinin inanc yerlərindən biridir. Pir təbii qayalığın içərisində olan oyuqda yerləşir. Oyuğa şimal tərəfdən salınmış dar cığırla getmək mümkündür. Yuxarı Yaycının qədim yurd yeri olduğunu bu kəndin ərazisindəki Cənnətqaya yaşayış məskəni də təsdiqləyir. Kəndin şərq hissəsində yerləşən Cənnətqaya Son Tunc və İlk Dəmir dövrlərinə aid edilir.***

Kənd hər tərəfdən dağlarla əhatə olunduğundan burada müalicəvi dağ bitkilərinə rast gəlmək olur: ələyəz, dağ nanəsi, pürk otu, limon ətirli kəklikotu və sair. Bu kənd həm də həmərsini ilə məşhurdur ki, bu kolun meyvəsinin soyuqdəymə və böyrək xəstəliklərində müalicəvi əhəmiyyəti olduqca böyükdür. Həmərsin çiçəklərindən bişirilən mürəbbə isə minbir dərdin dərmanıdır.

Şərurun ucqar dağ kəndi olan Yuxarı Yaycı özünəməxsus gözəlliyi, füsunkar təbiəti ilə də seçilir. Bu qədim yaşayış məskənində təmiz dağ havası, güllü-çiçəkli bağlar, yamyaşıl meşələr, uca, əzəmətli dağlar, büllur bulaqlar adamın könlünü oxşayır.

Yuxarı Yaycı kəndinin sakinləri bu gün rahat, firavan, əmin-amanlıq şəraitində yaşadıqlarına görə, ilk növbədə, ulu öndərimizə dönə-dönə minnətdar olduqlarını bildirirlər. Söyləyirlər ki, görkəmli dövlət xadimi Heydər Əliyev ötən əsrin 70-ci illərində Arpaçay üzərində nəhəng dəryaça tikdirməklə bu torpaqlara həyat bəxş edib. Adamların güngüzəranında əsas dəyişiklik də məhz o illərdən sonra başlanılıb.

Yuxarı Yaycı həm də sərhəd kəndidir. Ötən əsrin 90-cı illərinin əvvəllərində milli zəmində münaqişələr başlayanda bu kəndin adamları da böyük müsibətlər çəkib. Erməni yaraqlıları dəfələrlə bu torpağa hücum edib, sakinlərini ata-baba ocaqlarından didərgin salmağa çalışıblar. Amma Yuxarı Yaycının sakinləri öz dədə-baba torpaqlarını qoruyublar. Həmin dövrləri kənd ağsaqqalı Məhəmməd Cəfərov belə xatırlayır:

– Kəndimiz dəfələrlə erməni yaraqlılarının hücumuna, basqınına məruz qalıb. Ərazimizə səksənə yaxın top mərmisi düşüb. Onlardan beşi kəndin içərisində partlayıb. Uşaqlar və qadınlar dəfələrlə kənddən çıxarılıb. Amma əli tüfəng tutan bir nəfər belə, kəndi tərk etməyib. Hətta kəndin qadınları da hər gün neçə kilometrlərlə yol qət edərək uca dağ zirvəsinə qalxıb döyüşçülərə evlərindən yemək gətiriblər, onlara arxa-dayaq olublar.



50 ildən çox Yuxarı Yaycıda kənd məktəbinin direktoru olmuş təqaüdçü Miribrahim Seyidov da söhbətə qoşulur:

– Xalqımız özünün qəhrəmanlıq tarixi ilə həmişə öyünüb. Buna onun mənəvi haqqı da var. Tariximizin səhifələrində qanlı-qadalı döyüşlər, torpaq uğrunda mübarizələr çox olub. Bədnam qonşularımız erməni daşnakları isə XX əsrin əvvəllərindən başlayaraq torpaqlarımızı özününküləşdirməyə, yeraltı və yerüstü sərvətlərimizə sahib çıxmağa çalışıblar. Müəyyən məqamlarda öz havadarlarının köməyi ilə buna nail olsalar da, torpaq qədri bilən xalqımız onların bu fitnəkarlığı qarşısında mərdanə dayanıb. Mənim doğma kəndim də belə igidliklə qorunan yaşayış məntəqələrindən biridir. Elə son döyüşlər zamanı da ermənilər yuxarı yaycıların güclü müqavimətinə rast gəldilər, igid və vətənpərvər oğulların əzmini qıra bilmədilər. Gördülər ki, bu torpaq burada yaşayanlar üçün onların canlarından əzizdir. Çünki bu torpaq Vətəndir. Vətən isə o vaxt Vətən olur ki, o qorunur. Bir həqiqəti də etiraf etməyə bilmərəm. Ermənilərlə müharibə dövrü ümummilli liderimiz Heydər Əliyev olmasaydı, bu kəndi qoruyub saxlamaq da mümkün olmazdı. Ulu öndərimizin gecəli-gündüzlü yorulmaq bilmədən apardığı uğurlu siyasət təpədən-dırnadək silahlanmış erməni yaraqlılarının gücündən üstün oldu. Məhz bu siyasət nəticəsində erməni təcavüzkarları yerinə otuzduruldu.

Odur ki, bu sərhəd yaşayış məntəqəsində adamların hər birinin qəlbində böyük öndərimizə, onun siyasi kursuna tükənməz məhəbbət, sevgi, ehtiram hissləri vardır. Yuxarı Yaycı kəndi bu gün əmin-amanlıq, firavanlıq içərisindədir. Milli Ordumuzun əsgərləri yaşayış məntəqəsinin keşiyində ayıq-sayıq dayanıblar.

Kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Mirqasım Eminov isə yurd yeri haqqında bu məlumatları bizimlə bölüşdü:

– Dəniz səviyyəsindən 1520 metr hündürlükdə yerləşən kəndimizdə 1138 nəfər yaşayır. 2300 hektar ümumi torpaq sahəmiz var. Ulu öndərimizin təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilən torpaq islahatı kəndimizin adamlarına çox böyük töhfə oldu. Düzdür, əvvəllər bəzi adamlarda çaşqınlıq yaranmışdı – suvarma, texnika çətinlikləri onları qorxudurdu. Lakin çox keçmədi ki, hər şey öz qaydasına düşdü. Dövlətimizin kəndliyə göstərdiyi qayğı və diqqət adamları torpaqdan möhkəm yapışmağa ruhlandırdı.

Torpaq bu gün yüzlərlə sakinin dolanışıq yerinə çevrilib. Yuxarı yaycılılar əkinçilik və heyvandarlıqla məşğul olurlar. Ərazinin dağ ətəyində yerləşməsi bu təsərrüfat sahələrinin inkişafına zəmin yaradır. 2016-cı ilin məhsulu üçün kənddə 81 hektar sahədə taxıl əkini keçirilib. Artıq biçin başa çatdırılıb və sahələrdə məhsuldarlıq 30 sentner olub. Bundan əlavə, həyətyanı sahələrdə və pay torpaqlarında 20 hektara yaxın müxtəlif məhsullar, o cümlədən heyvandarlıq üçün yem bitkiləri əkilib.

Kənddə əsas məşğuliyyət sahələrindən biri də heyvandarlıqdır. Örüş və biçənək yerləri də kifayət qədərdir. Heyvandarlar indidən qışa hazırlıq tədbirləri görür, mövsümü mütəşəkkilliklə başa vurmaq üçün yem tədarük edirlər.

Arıçılığı geniş şəkildə inkişaf etdirmək dağ kəndləri üçün bir ənənə halını alıb. Bütün bunlar da təsadüfi deyil. Dağ kəndlərindəki təmiz hava, güllü-çiçəkli yerlərin çox olması bu lazımlı sahənin inkişafına təkan verir.

Yuxarı Yaycı kəndində də arıçılıqla məşğul olan adamlar az deyil. Burada arı ailələrinin sayı 350-yə çatdırılıb. İstehsal olunan balın dadına, tamına isə söz ola bilməz. Arıçılıqla məşğul olan adamlar bu sahəni daha geniş şəkildə inkişaf etdirmək niyyətindədirlər. Çünki arıçılıq çox gəlirli sahədir. Nurəddin Nadirov, Hüseyn Süleymanov, Ələmdar Fərzəliyev təsərrüfatlarında daha çox arı ailəsi saxlayırlar. Füsunkar təbiəti, təmiz dağ havası, otlu-sulu yerlərin çoxluğu kənddə yüksək keyfiyyətli bal istehsal etməyə imkan verir.

Yuxarı Yaycıda meyvə ağacları da baş-başa verib. Odur ki, kənddə yaxşı bağbanlar nəsli də yetişib. Onlardan Səyavuş İsmayılov, Əli Abdalxanov, Məhəmmədəli Fətəliyev, Tofiq Süleymanov və başqaları hər il bazara tonlarla cəviz, badam, ərik, alça, alma, armud və üzüm çıxarırlar.

Muxtar respublikamızda aparılan genişmiqyaslı quruculuq tədbirlərindən Yuxarı Yaycı kəndinə də xeyli pay düşüb. 2015-ci ildə burada kənd və xidmət mərkəzləri fəaliyyətə başlayıb, kənd tam orta məktəbinin binası isə yenidənqurma işlərindən sonra müəllim və şagirdlərin istifadəsinə verilib. Həyata keçirilən quruculuq işləri zamanı Aşağı Yaycıdan kəndə gələn 5,7 kilometr uzunluğunda avtomobil yolu genişləndirilib, yeni asfalt örtük salınıb, yol üzərində 1 selötürücü, 48 su keçidi tikilib, 390 metr beton kanal çəkilib. Yolun müasir tələblər səviyyəsində yenidən qurulması nəqliyyat vasitələrinin rahat və təhlükəsiz hərəkətinə imkan verib. Görüşüb söhbətləşdiyimiz kənd sakinləri yaradılan bu şəraitə görə dövlətimizə minnətdarlıqlarını bildirdilər.

Yuxarı Yaycı adı gələndə çoxlarının nəzərində həm də Ağbulaq çeşməsi canlanır. Onun çağlayıb axdığı yer əsrarəngiz təbiətə malikdir. Şiş qayalar, daşlar sanki bir tamaşadır bu yerdə. Bu dağların, daşların altından süzülüb gəlir "Ağbulaq" çeşməsi. Kəndin əhalisi, əsasən, həm içmək, həm də həyətyanı sahələrini suvarmaq üçün "Ağbulaq" çeşməsinin suyundan istifadə edir. Son vaxtlar kənddə bir neçə məhəlləyə su xətti də çəkilib. Bəyzad kəhrizi də bu kənddədir. Təbiətin möcüzəsinə bir baxın. Yuxarı Yaycı kəndində az qala hər daşın altından bir bulaq çıxır. Hamısı da gecə-gündüz qaynayır, çağlayır...

*Vətən sərhəddən başlanır. Yuxarı Yaycı da Vətənimizin başlandığı yaşayış məntəqələrindən biridir. Doğma yurda qırılmaz tellərlə bağlı olan kənd adamları dünən olduğu kimi, bu gün də sərhəddə ayıq-sayıq dayanıblar. Vətəni qoruya-qoruya qurub-yaradır, gündən-günə inkişaf edən muxtar respublikamızın, bütövlükdə, ölkəmizin inkişafına öz töhfələrini verirlər. Ordumuza inam, kəndliyə qayğı onları daha işıqlı sabahlara aparır...*

**✍ Səbuhi HƏSƏNOV**

## İlk avropalı azərbaycanlı və ilk azərbaycanlı professor



***Məhəmmədağa Məhəmmədtağı Sultan oğlu Şahtaxtlı görkəmli maarifçi, publisist, alim, böyük şöhrətə malik milli ziyalı kimi tariximizə düşüb.***

O, 1846-cı ildə qədim türk yurdu olan və "sahib-mənsəb ziyalılar yurdu", "Naxçıvanın elm və mədəniyyət mədrəsəsi" kimi böyük şöhrət qazanmış Şahtaxtıda anadan olub. 1860-cı ildə Naxçıvan şəhər qəza ibtidai məktəbini bitirən Məhəmmədağa 14 yaşında ikən Tiflis klassik gimnaziyasında təhsilini davam etdirib. O, 1871-ci ildə Almaniyanın Leypsiq Universitetinin Tarix, fəlsəfə və hüquq fakültəsində ali təhsil alıb. 1873-1875-ci illərdə Parisdə yaşayıb, sonra Tiflisə qayıdıb. Xaricdə təhsil alan və Avropa mədəniyyətini mükəmməl öyrənən ilk görkəmli Azərbaycan ziyalılarından olan Məhəmmədağa Şahtaxtlıya, təsadüfi deyildi ki, "ilk avropalı azərbaycanlı", – deyə xitab edirdilər. Məhəmmədağa Şahtaxtlını hələ cavan vaxtlarından tanıyan böyük ədibimiz Cəlil Məmmədquluzadə "Xatiratım" əsərində belə yazırdı: "Məhəmmədağa Şahtaxtlı çoxdanın adamıdır… Qoca yazıçımız Şahtaxtının əyanlarındandır… "Şərqi-Rus" naşiri və baş mühərriri Məhəmmədağa Şahtaxtlı Naxçıvan şəhərinin yavıqlığında Araz kənarında məşhur bir qəsəbədəndir. Məşhur onunladır ki, bu qəsəbə bir çox sahib-mənsəb və ziyalıların vətəni olubdur".

Dahi Mirzə Cəlil Məhəmmədağa Şahtaxtlı haqqında həm də onun millət yolundakı, mətbuat və əlifba islahatları sahəsindəki fəaliyyətindən iftixarla danışırdı. O, Məhəmmədağanın "cavanlıqda özünü təhsilə verib Şərq dillərini təhsil etməsindən", "Avropa lisanlarını öyrənməsi və Avropada xeyli vaxt qalmasından", "həvəsi və məşğələsinin yazıçılıq olmasından", "Avropa və Rusiya qəzetlərində həmişə iştirak etməsindən", "türkcə qəzet nəşr etməsindən", "Şərqi-Rus"u çıxartmağa nail olmasından", Azərbaycan maarifinə can-başla xidmət etməsindən bəhs edir. Hətta onun "qəzet məşqinə düşəndə atadanqalma mülkünün öz hissəsini satıb Tiflisdə qəzet nəşr etməsini" daha böyük qürurla xatırlayır. C.Məmmədquluzadə yazırdı: "Məhəmmədağanı mən cavan vaxtında bir dəfə də Naxçıvanda görmüşdüm. Min səkkiz yüz doxsan dörddəmi-beşdəmi, bilmədim, Məhəmmədağa nədən ötrüsə Naxçıvana gəlmişdi. Mənim o vaxt yazmış olduğum "Məhəmmədhəsən əminin hekayəsi" yoldaşlarımın arasında danışığa düşmüşdü. Və Məhəmmədağa təkid etdi və mən hekayəni apardım qoydum onun qabağına. O da başdan bir neçə vərəq oxudu və bəyəndi".

Mirzə Cəlilin Məhəmmədağa ilə ilk görüşünü xatırladığı həmin vaxt, ədibin doğru xatırladığı kimi, 1894-cü il idi.

Şahtaxtlı haqqında sanballı əsər müəllifi olan akademik İsa Həbibbəyli yazır ki, "müşahidələrin göstərdiyi kimi, 1893-cü ildə Məhəmmədağa yenidən Türkiyəyə qayıtmış, ...1894-cü ildə Naxçıvana gəlmiş, ata yurdu Şahtaxtıda olmuşdur. O, bu səfəri zamanı bir çox naxçıvanlı ziyalılarla görüşmək, ünsiyyət yaratmaq imkanı əldə etmişdi". Bəli, Məhəmmədağa Şahtaxtlı dövrünün mütərəqqi fikirli ziyalılarından olan və Azərbaycan siyasi publisistikasının banisi, naşir və "Qeyrət" mətbəəsinin sahibi, cəfakeş jurnalistdir. Məhəmmədağa həm də o şəxsiyyətlərdəndir ki, mənsub olduğu xalqının maariflənməsi yolunda öz ata mülkünü satıb qəzet və nəşriyyat işinə həsr etmiş, yuxarıda da deyildiyi kimi, "Şərqi-Rus" qəzetini çap etdirmişdir.

### *O həm də ilk azərbaycanlı professor idi*

Məhəmmədağa Şahtaxtlı Azərbaycan ictimai-mədəni və elmi fikir tarixində həm də ilk azərbaycanlı professor kimi böyük elm zirvəsi fəth etmişdir. Çoxşaxəli və hərtərəfli yaradıcılıq, fəaliyyət imkanlarına malik olan Məhəmmədağa Şahtaxtlı poliqlot alim kimi də tanınmışdır. O, ərəb və fars dilləri ilə yanaşı, rus, ingilis, fransız dillərini, ümumiyyətlə isə 7 xarici dili mükəmməl bilirdi. Məhəmmədağa o ziyalılardan idi ki, həm Avropa mədəniyyətini, dəyərlərini və biliklərini Azərbaycan reallığına gətirmişdi, həm də Azərbaycan reallıqlarını və dəyərlərini Avropada müvəffəqiyyətlə təmsil və təbliğ edirdi. Məhəmməd ağa Şahtaxtlı XX əsrin əvvəllərində, bütövlükdə, Şərq və Türk dünyasında ilk parlamentli, dünyəvi dəyərlərə malik Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasına zəmin hazırlayan görkəmli maarifçi ziyalılardan idi. Ölkədə milli kadr hazırlığı istiqamətində xeyli iş görən Bakı Dövlət Universitetində müəllim kimi fəaliyyət göstərmiş Məhəmmədağa Şahtaxtlı bu ali təhsil ocağının ilk professorlarından biri olmuşdu. Bakı Dövlət Universitetində şərqşünas kimi çalışan Məhəmmədağa Şahtaxtlıya məhz bu sahədəki fəaliyyətinə görə universitetin Elmi Şurası tərəfindən professor elmi dərəcəsi verilmişdi.

M.Şahtaxtlı öz yaradıcılığında milli istiqlaliyyətə maneçilik törədən psixoloji-mənəvi, sosial-ictimai və başqa məsələləri təqdim və tənqid edən, milli oyanışa xidmət edən görkəmli maarifçilərdən biri idi. O, məqalələrində uca ideallara qarşı çıxan əngəlləri təhlil edir, onların aradan qaldırılması yollarını düşünürdü. "Hər millət mərifət ilə yaşar, cəhalət ilə yox olar", – deyən Məhəmmədağa Şahtaxtlı yaradıcılığında öz milləti haqqında narahat duyğu və problemləri əks etdirmiş, onların həlli istiqamətində mücadilə aparmışdır. Onun əlifba islahatı istiqamətindəki yorulmaz fəaliyyəti də xalqının inkişafına göstərilən xidmətlər sırasında olduqca qiymətlidir. Bu mənada, görkəmli alim Azərbaycan ictimai fikir tarixində həm də əlifba islahatçısı kimi şöhrət qazanmışdır.

Məhəmmədağa Şahtaxtlı Azərbaycan elmi, ədəbi və ictimai fikir tarixində daşıdığı mühüm xidmətlərə görə dövlət səviyyəsində şəxsiyyəti hörmətlə yad edilən və yaradıcılığı öyrənilən simalardan biridir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Görkəmli ictimai xadim, publisist və maarifçi Məhəmmədağa Şahtaxtlının anadan olmasının 160 illiyinin qeyd olunması və xatirəsinin əbədiləşdirilməsi haqqında" 2006-cı il 27 fevral tarixli Sərəncamı da görkəmli ziyalının xidmətlərinə göstərilən dövlət qayğısı və ehtiramın bariz nümunəsidir. Məhz bu sərəncam işığında Naxçıvanda yaşayan elm adamları və ziyalılar tərəfindən Məhəmmədağa Şahtaxtlının həyat və yaradıcılığı yenidən araşdırma obyekti olmuş, ilk dəfə akademik İsa Həbibbəylinin tərtibçiliyi ilə "Seçilmiş əsərləri" çap olunmuşdur. Həmçinin Naxçıvan şəhərindəki Kitab evinə Məhəmmədağa Şahtaxtlının adının verilməsi bu görkəmli ziyalıya ehtiramın məntiqi ifadəsidir. "Naxçıvan" jurnalının xüsusi buraxılışının ona həsr olunması və AMEA Naxçıvan Bölməsində "Məhəmmədağa Şahtaxtlı: taleyi və sənəti" kitabının da dövlət qayğısı ilə çap olunması böyük ziyalının həyatı, fəaliyyəti və irsinin öyrənilməsi və təbliği baxımından əhəmiyyətlidir. Bu gün Şahtaxtinskilərin doğma dədə-baba yurdu olan Şahtaxtı kəndində kütləvi ziyarət yerinə çevrilən Şahtaxtinskilər muzeyi də Şahtaxtinskilərə dövlət səviyyəsində verilən qiyməti və göstərilən ehtiramı aydınlığı ilə təzahür etdirir.

**Ramiz QASIMOV**
*AMEA Naxçıvan Bölməsinin böyük elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent*

*Avqustun 21-də Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Alayında gənc əsgərlərin andiçmə mərasimi keçirilib.*

## Mülki Müdafiə Alayında andiçmə mərasimi keçirilib

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himninin sədaları altında üçrəngli bayrağımız meydana gətirilib.



Sonra gənc əsgərlər vətəni layiqincə qoruyacaqlarına, əsgəri borclarını şərəflə yerinə yetirəcəklərinə and içiblər.

Andiçmə mərasimində Mülki Müdafiə Alayının komandiri, polkovnik İspəndiyar Əhmədov hərbi andın əhəmiyyətindən danışıb, gənc əsgərləri əlamətdar gün münasibətilə təbrik edib.

Mərasimdə çıxış edən baş leytenant Dönməz Məmmədov, kiçik çavuş İlkin Mustafayev, gənc əsgər Rüstəm Əsədov, valideynlər adından isə Kifayət Quliyeva gənc əsgərləri təbrik ediblər.

Mərasimdə əminliklə bildirilib ki, gənc əsgərlər nümunəvi xidməti, təlim-tərbiyəsi ilə hərbi hissənin adını yüksək tutacaq, əsgəri borclarını şərəflə yerinə yetirəcək, baş verə biləcək fövqəladə hallar zamanı zərərçəkmiş insanların xilas edilməsi üçün əllərindən gələni əsirgəməyəcəklər.

Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki müdafiə işinin təşkili şöbəsinin rəisi, polkovnik Emin Qasımov Azərbaycanın müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün etibarlı şəkildə qorunmasında Silahlı Qüvvələrimizin rolundan danışıb, gənc əsgərlərə xidmətlərində uğurlar arzulayıb.

Sonda alayın şəxsi heyəti hərbi marşın müşayiəti ilə tribuna önündən keçib.

## Voleybolçular Ağbulaq İstirahət Mərkəzində istirahət ediblər



***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Həmkarlar İttifaqları Şurasının birgə təşkilatçılığı ilə yeniyetmə voleybolçuların Ağbulaq İstirahət Mərkəzində istirahətləri təşkil olunub.***

Avqustun 21-22-də mərkəz 45 voleybolçunu qəbul edib. İdmançılar əvvəlcə Şahbuz Dövlət Təbiət Qoruğu ilə tanış olublar. Burada 2899 bitki növü yayılıb ki, onların bir çoxu endemikdir. Geniş müxtəlifliyə malik bitki örtüyü 285 növ faunanın bu ərazilərdə yayılmasına imkan verib. Ərazidə şabalıdı və torflu torpaq tiplərinin mövcudluğu landşaft-bitki örtüyünün formalaşmasında böyük rol oynayıb.

Sonra idmançılar Ağbulaq İstirahət Mərkəzinə yol alıblar. Burada idmançılara məlumat verilərək bildirilib ki, Ağbulaq İstirahət Mərkəzi Naxçıvanda kənd turizminin inkişaf etdirildiyi ən gözəl məkanlardan biridir. 2013-cü ildə istifadəyə verilən mərkəzin ərazisi 3,5 hektardır və 3 yaşayış korpusundan, 1 yeməkxana binasından ibarətdir.

Nahar yeməyindən sonra proqrama uyğun olaraq voleybolçular müxtəlif stolüstü oyunlarda mübarizə aparıblar. Şahmat, dama kimi zehni oyunların ardınca "Ağbulaq" bulağına yürüş keçirilib. Sonra vətənpərvərlik mövzusunda sənədli filmin nümayişi idmançılarda xoş təəssüratlar yaradıb.

Növbəti gün voleybolçular müxtəlif idman yarışlarında güvvələrini sınayıblar. Mərkəzin stadionunda voleybol yarışı keçirilib. Nahar yeməyinin ardınca idmançılar üçün əyləncəli saat təşkil edilib. Əyləncəli saatda yeniyetmə idmançılara bir-birindən xoş musiqi nömrələri təqdim olunub. Axşam saatlarında isə idmançıların Ağbulaq İstirahət Mərkəzində ikigünlük istirahətinə yekun vurulub və onlar Naxçıvan şəhərinə qayıdıblar.

İkigünlük istirahət mərkəzdə olan idmançılarda razılıq doğurub. Onların təəssüratlarını öyrəndik.

Voleybolçu Röyal Həsənov bu səfərin onda xoş təəssüratlar yaratdığını bildirdi. İki gün ərzində tədbirlərə qatılıblar və bu da voleybolçuların istirahətlərinin səmərəli keçməsində mühüm rol oynayıb.

Naxçıvan Muxtar Respublikası Voleybol Federasiyasının sədr müavini Aydın Mirzəyev istirahət mərkəzində yaradılmış hərtərəfli şəraitə görə minnətdarlığını bildirdi.

Qeyd edək ki, cari il mart ayının 18-də muxtar respublika Ali Məclisində Naxçıvan Muxtar Respublikasında turizmin inkişaf etdirilməsi ilə bağlı keçirilən müşavirədə muxtar respublika rəhbərinin tapşırıqlarına əsasən, idman federasiyaları üzvlərinin Ağbulaq İstirahət Mərkəzində istirahətləri təşkil olunur.

**Xəbərlər şöbəsi**

## Bəhruz Kəngərli adına Rəssamlar Parkında konsert olub

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində olan mədəniyyət müəssisələrində, mədəni-maarif ocaqlarında isti yay günlərində əhalinin istirahətinin səmərəli təşkili, asudə vaxtın mənalı keçirilməsi üçün müxtəlif tədbirlər həyata keçirilir.***





Avqustun 20-də nazirliyin təşkilatçılığı ilə Naxçıvan şəhərindəki Bəhruz Kəngərli adına Rəssamlar Parkında konsert təşkil edilib. Naxçıvan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblı geniş konsert proqramı ilə tədbir iştirakçılarına xoş ovqat bəxş edib. Ansamblın bədii rəhbəri Azərbaycan Respublikasının Əməkdar artisti Zeynalabdin Babayev, baletmeyster Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Tamerlan Bağırovdur.

Ansamblın solistləri Hüseyn Qasımov, Samiddin Vəliyev, Cəfər Tağıyev, Namiq Vəliyev, Qəribə Həsənovanın ifalarında Azərbaycan xalq mahnıları və bəstəkarlarımızın populyar mahnıları səslənib. Solistlərin ifasında səslənən xalq mahnılarından "Süsən sünbül", "Ana yurdum", bəstəkar mahnılarından "Bəyənmir məni", "Sənin eşqin", "Söylə", "Bəs nə deyim", "Yolunu gözləyirəm", "Enməyə qoymaram", "Söz olmasaydı", "Hələ nəğməm var mənim" və başqa mahnılar alqışlarla qarşılanıb.

Kollektivin üzvlərindən rəqqasə Zəlihə Hüseynquliyevanın "Qavalla rəqs", Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Sona Abbasovanın "Sarı gəlin" rəqsi, rəqs qrupunun "Naz eləmə" rəqsləri də tamaşaçılarda xoş əhval-ruhiyyə yaradıb.

Naxçıvan Muxtar Respublikasının Əməkdar artistləri Xatirə Səfərova və Hünər Əliyevin ifalarında səslənən xalq mahnıları kollektivin repertuar zənginliyini göstərirdi.

Bu il istifadəyə verilən Naxçıvan şəhərindəki Bəhruz Kəngərli adına Rəssamlar Parkında ilk dəfə təşkil olunan konsert proqramı iki saat davam edib.

**Əli RZAYEV**

*Cəbrayıl və Füzuli rayonlarının Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmasından 23 il ötür. Hər iki rayon eyni tarixdə – 1993-cü il avqustun 23-də işğal edilib.*

## Cəbrayıl və Füzuli rayonlarının işğalından 23 il ötür





Füzuli rayonu Qarabağ dağ silsiləsinin cənub-şərq ətəklərindən Araz çayına qədər maili düzənlik və alçaq sahələri əhatə edir. Cəbrayıl, Xocavənd, Ağcabədi, Beyləqan rayonları və Araz çayı boyunca İranla həmsərhəddir. Ərazisi 1386 kvadratkilometr olan rayonda 1 şəhər, 1 şəhərtipli qəsəbə, 75 kənd olub. İşğaldan əvvəl rayonda 86 ümumtəhsil və 2 texniki-peşə məktəbi, 65 uşaq bağçası, 90 kitabxana, 79 klub, 1 tarix-diyarşünaslıq muzeyi, 9 musiqi məktəbi, 7 xəstəxana, 16 həkim məntəqəsi, 9 feldşer-mama məntəqəsi fəaliyyət göstərirdi.

Qeyd edək ki, bu rayon ermənilər üçün böyük strateji əhəmiyyət daşıyırdı. 1993-cü ilin avqustunda cəbhənin bütün istiqamətlərində əks-hücuma keçən düşmənlər Azərbaycanda siyasi hakimiyyət uğrunda mübarizədən yararlanıb Füzuli şəhərini işğal etdilər. Bundan sonra düşmən qüvvələri bir neçə istiqamətdə Arazboyu yaşayış məntəqələrinə doğru irəlilədilər. Məqsəd regionda strateji cəhətdən əhəmiyyətli, regional kommunikasiyaların kəsişdiyi Horadiz qəsəbəsinin ələ keçirilməsi idi. Horadizin işğalı ilə, eləcə də Əhmədbəyli kəndi istiqamətində "Dörd yol" deyilən əraziyə çıxmaqla düşmən o zaman işğal olunmamış Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarını faktiki olaraq blokadaya salırdı. Horadiz qəsəbəsinin müdafiəsini Sərhəd Qoşunlarının burada yerləşən komendantlığı təşkil etmişdi. Bir neçə gün davam edən döyüşdən sonra qüvvələrin qeyri-bərabər olması səbəbindən sərhəd zastavası mövqelərini tərk edərək geri çəkilir. Ermənilər Horadiz qəsəbəsini və İranla sərhəddə yerləşən su anbarı üzərindəki körpünü tutur. Qəsəbədəki bütün inzibati və yaşayış binaları, neft bazası, dəmir yolu vağzalı yandırılır və qeyd etdiyimiz kimi, Horadizin işğalı ilə digər rayonlar faktiki olaraq blokadaya düşür. Araz boyunca Beyləqana doğru irəliləyən düşmən qüvvələri Arayatlı, Babı, Əhmədalılar, Kərimbəyli, Araz Yağlıvənd kəndlərini işğal edirlər. 1993-cü il noyabrın 7-də ermənilər 400 nəfərə yaxın canlı qüvvə, 30-a yaxın tank və zirehli transportyorun iştirakı ilə rayonun ən böyük yaşayış məntəqəsi olan Böyük Bəhmənli kəndinə hücuma keçir. Kəndin bir hissəsini işğal edən düşmən qüvvələri Azərbaycan Silahlı Qüvvələrinin ciddi müqaviməti ilə qarşılaşır. Bu kənddə yerləşən sərhəd zastavasının 30 nəfər şəxsi heyəti qəhrəmanlıq nümayiş etdirərək 2 gün ərzində düşmənin bütün hücumlarını dəf edir. Düşmən xeyli sayda canlı qüvvəsini bu döyüşlərdə itirir. Sərhədçilər də bir neçə şəhid verir. İki aya yaxın davam edən qanlı döyüşlər zamanı ermənilər Böyük Bəhmənli kəndinin bir hissəsini işğal etsələr də, kəndi tam ələ keçirə bilmirlər. Dekabr ayında yenidən hücum edən düşmən bu dəfə Daxili Qoşunların müqaviməti ilə qarşılaşır. Daxili Qoşunların 5 əsgəri düşmən tankı ilə qeyri-bərabər döyüşdə geri çəkilməyərək həlak olur. Düşmən də bir neçə texnikasını itirərək yenidən geri çəkilir. Ümummilli liderimiz Heydər Əliyevin orduda apardığı islahatlar nəticəsində, 1994-cü il yanvarın 5-dən 6-na keçən gecə Azərbaycan Silahlı Qüvvələri Araz çayı boyunca və Əhmədbəyli-Kürdmahmudlu-Alxanlı kəndləri istiqamətində əks-hücuma keçir. İki gün davam edən döyüşlərdə Azərbaycan Ordusu Horadiz qəsəbəsini və ətraf kəndləri düşməndən təmizləyir. Ermənilər bir neçə yüz nəfər canlı qüvvə itirir. Alxanlı istiqamətində hücum edən qüvvələrimiz isə Qaraxanbəyli, Qorqan kəndlərinədək irəliləməyə nail olur.

Bu uğursuzluqdan sonra düşmən atəşkəs sazişini imzalamağa məcbur olur və 1994-cü ilin may ayında Azərbaycan və Ermənistan arasında atəşkəs sazişi imzalanır.

Qeyd edək ki, rayonun işğaldan azad olunmuş ərazilərində 13 qəsəbə və 20 kənd var. Bu qəsəbələrdən 12-si işğaldan azad olunmuş ərazidə yeni salınıb və məcburi köçkün ailələri müvəqqəti olaraq burada yerləşdirilib. Hazırda ərazidə 50 min nəfərdən çox məcburi köçkün məskunlaşıb.

Füzuli rayonu həm də təbii sərvətlər baxımından çox zəngindir. Rayonda ümumi ehtiyatları 58858 min kvadratmetr olan və mişar daşı istehsalına yararlı istismar olunan 2 (Dövlətyarlı, Dilağar) əhəngdaşı, kərpic-kirəmit istehsalına yararlı 11211 min kvadratmetr ehtiyatlara malik Kürdmahmudlu gil, ehtiyatları 13053 min kvadratmetr olan Quruçay qum-çınqıl qarışığı yataqları var. Rayon ərazisində yaşı 200 ildən 1400 ilə qədər olan 11 ədəd Şərq çinarı təbiət abidəsi kimi pasportlaşdırılıb və işğala qədər mühafizə olunub. Erməni işğalına qədər rayonda pambıqtəmizləmə, yağ-pendir və dəmir-beton məmulatı zavodları, taxıl məhsulları kombinatı, toxuculuq fabriki, daş karxanası, 11 üzüm emalı müəssisəsi, 100-dən çox iri müəssisə fəaliyyət göstərib. Füzulinin kənd təsərrüfatında əsas sahələr üzümçülük, taxılçılıq, ipəkçilik və heyvandarlıq olub. Füzuli rayonu ərazisində onlarla tarixi və dini abidələr yerləşir ki, onların da çoxunun ermənilər tərəfindən dağıdılmasına dair faktlar var. Belə abidələrdən ən məşhuru Azıx mağarasıdır.

Cəbrayıl rayonunun ərazisi isə 1050 kvadratkilometrdir. Erməni işğalı nəticəsində rayonda 72 ümumtəhsil məktəbi, 8 xəstəxana, 5 məscid, 2 muzey, 129 tarixi abidə, 149 mədəniyyət ocağı düşmən tapdağı altında qalıb. Cəbrayıldan olan 60 mindən çox məcburi köçkün respublikamızın 58 rayonunda məskunlaşıb. İşğal olunmazdan əvvəl Cəbrayılın kənd təsərrüfatı, əsasən, üzümçülük, heyvandarlıq, taxılçılıq, tərəvəzçilik, meyvəçilik, baramaçılıq sahələrindən ibarət olub. Cəbrayıl rayonu tarixi-memarlıq və dini abidələrlə zəngindir. Tarixi abidələrə misal kimi XII əsrə aid məşhur Xudafərin körpülərini, Sultan Məcid hamamını, Diri dağındakı Qız qalasını, dini abidələrə isə bölgə əhalisinin and yeri olan Hacı Qaraman ziyarətgahını misal göstərmək olar. Zəngin yeraltı sərvətlərə və təbii gözəlliyə malik Cəbrayıl rayonunda mişar daşı istehsalına yararlı və istismara cəlb edilmiş ehtiyatları 2937 min kubmetr olan Tulus tuf, ümumi ehtiyatları 5434 min kubmetr olan Çaxmaqçay, Soltanlı tikinti qumu, ehtiyatları 296 min kubmetr olan kərpic istehsalına yararlı Qaracallı gil, ehtiyatları 6644 min ton olan sement istehsalına yararlı Göyərçin-Veysəlli vulkan külü, ehtiyatları 1325 min ton olan Minbaşlı gəc, ehtiyatları 5226 min ton olan əhəng istehsalına yararlı Ağtəpə əhəngdaşı, ehtiyatları 4130 min kubmetr olan Cəfərabad qum-çınqıl qarışığı, ehtiyatları 504 ton olan Sahverdi yaşəm və ehtiyatları 1348 ton olan Çaxmaqqaya xalsedon yataqları var. Rayonda yaşı 200-1600 olan 14 ədəd Şərq çinarı və digər qiymətli ağaclar, həmçinin Dağtumas kəndində "Divlər sarayı" adlanan mağara təbiət abidəsi kimi qorunurdu.

Cəbrayıl rayonunda respublika və rayon əhəmiyyətli 120-dək tarixi memarlıq abidəsi, qiymətli ağac növlərindən ibarət meşələr, qeyri-adi flora və faunası ilə seçilən Diridağın özünəməxsus təbiət guşələri, mineral maddələrlə zəngin su mənbələri erməni işğalçıları tərəfindən dağıdılaraq məhv edilib.

Bəli, ötən əsrin sonlarında işğal olunan Füzuli və Cəbrayıl rayonları artıq 23 ildir, düşmən tapdağı altındadır. Ancaq xalqımız heç zaman bununla barışmayacaqdır. Artıq ötən dövr ərzində Azərbaycan dünyanın sürətlə inkişaf edən ölkələrindən birinə çevrilib. Azərbaycan Silahlı Qüvvələri regionun ən güclü ordusu sayılır. Bu gün Azərbaycan Ordusu qarşıda duran istənilən tapşırığı layiqincə və vaxtında yerinə yetirməyə hazırdır. Bir neçə ay bundan əvvəl ordumuzun yalnız təmas xəttində olan birləşmələrinin düşmənə verdiyi layiqli cavab hələ də erməni siyasi və hərbi rəhbərliyinin müzakirə mövzusu olaraq qalmaqdadır. Bu fakt isə onun göstəricisidir ki, Azərbaycan xalqı, Ali Baş Komandanın dəfələrlə dediyi kimi, münaqişəni sülh yolu ilə həll etmək istəyir. Ancaq bu, baş verməzsə, bütün məsuliyyət düşmən ölkənin rəhbərliyinin üzərinə düşür. Belə olan halda Silahlı Qüvvələrimiz üzərinə düşən vəzifəni layiqincə yerinə yetirəcəkdir. O zaman nəinki Füzuli və Cəbrayıl rayonları, ümumilikdə, bütün işğal altında qalan torpaqlarımız özünün əsl sahibinə qovuşacaqdır. O gün isə uzaqda deyil.

✍ **Səbuhi HƏSƏNOV**

## Unutmaz bu torpaq, bu Vətən səni

***40 gündür aramızda olmayan bir şəhidimiz var. O şəhid ki ömrü boyu ölümün gözünə dik baxıb, Vətən yolunda hər an canından keçməyə hazır olub...***

...Azərbaycanın mərd oğlu, baş leytenant Toğrul Məmmədovun ata ocağına – Babək rayonunun Şıxmahmud kəndinə gedirik. Həftədə bir neçə dəfə yanından ötüb keçdiyim kənd bu səfər gözümə ayrı görünür. Elə bil ki, öz şəhidi ilə qürurlanır. Deyir ki, bax suyumdan içən, bu torpaqda böyüyən Toğrul məni qoruyub, canından keçib, şəhid olub.

...Toğrul 1988-ci ildə ziyalı ailəsində dünyaya göz açmışdı. İlk təhsilini Şıxmahmud kənd tam orta məktəbində almışdı. Uşaqlıqdan vətənpərvərliyi ilə seçilən Toğrul 2002-ci ildə Heydər Əliyev adına Hərbi Liseyə qəbul olunmuşdu. 2005-2009-cu illərdə ali hərbi təhsil almışdı. Sonra təyinatla Ağdamda "N" hərbi hissədə xidmətə başlamışdı. Nümunəvi hərbi xidməti ilə seçilən Toğrul bir çox mükafatlara layiq görülmüşdü. 2014-cü ilin avqust ayında xidməti vəzifəsini yerinə yetirərkən yaralanan Toğrul bu il aprel döyüşlərində düşmənlə qəhrəmancasına vuruşmuşdu. İyulun 14-də axşam saatlarında cəbhə xəttinin Ağdam istiqamətində düşmən tərəfindən açılan snayper atəşi nəticəsində o, şəhidlik zirvəsinə ucaldı.

...Şəhid qardaşım Toğrul! Ata ocağında Azərbaycan bayrağı dalğalanır. Evinizdə hamının gözlərində hüznlə qarışıq bir qürur duyulur. Çünki şəhidliyin qüruru kədərindən böyükdür. Çünki şəhid adını qazanmaq üçün Vətəni, sadəcə, sevmək yetərli deyil. Onu canından çox sevməlisən, həm də hər bir qarışını sevməlisən. Daşını, qayasını sevməlisən, gülünü-çiçəyini sevməlisən. Onda üstündə gəzdiyin, suyunu içdiyin, çörəyini yediyin, havasını udduğun torpaq Vətən olur.

Şəhidlik, Vətən uğrunda ölmək Toğrul üçün böyük şərəf idi. Bu səbəbdən qaçmadı silahların qabağından. Bir gecədə yol aldı şəhidlik zirvəsinə, mübarizliyi ilə səs verdi Vətəninin səsinə – bunları qardaşın Üzeyir deyir. O, sənin bu Vətəni – Azərbaycanımızın hər bir qarışını necə sevdiyindən danışır. Gözləri dolur. Amma qürurlu olduğunu da duymaq çətin deyil. Nişanlı bacın isə səssizcə bir kənarda oturub. Ürəyindən nələr keçir görəsən? Qardaş itkisindən böyük ağrı olarmı? Özü də ata əvəzi olan qardaş... Dönüb bir də bacının üzünə baxıram. Bir məğrurluq görürəm.

Sən elə şəhidlik zirvəsinə ucalmaqla qardaş-bacına ən böyük mükafatı verdin. Sənin yoxluğun onlara ağır dərd olsa da, səninlə, şəhidliyinlə də bir o qədər qürur duyurlar. Divardan asılan şəklində laldinməz bizə baxırsan. Gözlərində düşmənə qarşı bir kin var. Özümə "Nigaran qalma, qəhrəman", – deyirəm. Sənin şəhidliyinin nuru bacı və qardaşının yoluna işıq salacaq. Sən torpaq uğrunda canından keçdin. Unutmaz bu torpaq, bu Vətən səni. Qarabağın azad olunmasına çox az qalıb, mənfur düşmən öz qanında boğulacaq, sənin və sənin kimi yüzlərlə şəhidimizin qanı yerdə qalmayacaq. Əgər siz olmasaydınız, yurd da olmazdı, Vətən də. Siz dövlətimiz üçün polad körpüsünüz, həm də sınmayan, əyilməyən, Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü qədər ağır bir yükü dünənimizdən bu günümüzə ötürən qəhrəmanlıq körpüsü...

Yazdıqlarım Toğrul Məmmədovun bir insan, bir oğul və bir vətəndaş kimi etdiklərinin qarşısında çox azdır. Onun yaşadığı ömür kimi. Ancaq o, bu az ömrü əsl vətəndaş kimi yaşadı. Vətəndaş və şəhid kimi bu dünya ilə vidalaşdı. Mən də onun ata ocağıyla vidalaşıram. Ancaq bu qapıya, yəqin ki, yenə yolum düşəcək. Tək mənim yox, Toğrul kimi vətənpərvərləri sevən bütün insanların...

✍ **Sara ƏZİMOVA**

## Culfada voleybol üzrə yoldaşlıq görüşü keçirilib

***Culfa Rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə rayonun Əbrəqunus kənd tam orta məktəbinin idman zalında Ərəzin və Əbrəqunus kənd voleybol komandalarının yoldaşlıq görüşü keçirilib.***



Görüşdən öncə rayon Gənclər və İdman İdarəsinin baş məsləhətçisi Elçin Cəfərov çıxış edərək keçirilən tədbirin mahiyyətindən, idmanın inkişafına və gənclərə göstərilən dövlət qayğısından, son zamanlar idmanın müxtəlif növləri üzrə əldə olunan nailiyyətlərdən danışıb. Gərgin mübarizə şəraitində keçən yarışda Əbrəqunus kənd komandası 3:2 hesabı ilə qalib gəlib.

Sonda hər iki komandaya Culfa Rayon Gənclər və İdman İdarəsinin diplomları təqdim edilib.

✍ **Ceyhun MƏMMƏDOV**

## 15 avqust 2016-cı il tarixdə keçirilmiş hərracda satılmış müəssisə haqqında məlumat

| Sıra №-si | Müəssisənin adı | Ünvanı | İstismara verildiyi il | Müəssisənin tam dəyəri | Müəssisənin satış qiyməti |
|---|---|---|---|---|---|
| 1. | "Sədərək Tikiş Müəssisəsi" MMC | Sədərək rayonu | 2003 | 26020,44 | 13010,22 |


ŞƏRQ qapısı

Məsul katib: Muxtar Məmmədov

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Rauf Əliyev

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1050. Sifariş № 634